Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Günahsız müqəssir Əliabbas Müznib

**Əliabbas Müznibin 135 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Günahsız müqəssir Əliabbas Müznib :** Əliabbas Müznibin 135 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Bu gün biz milli azadlıq tariximiz barədə iftixar doğuracaq çoxlu məlumatlara malikik. Lakin bir zamanlar bu tarixin kiçicik bir səhifəsindən belə xəbərsiz olduğumuzu gənc nəsil heç ağlına belə gətirmir. Bəli, dünya dəyişir, zamanın hökmü ilə bağlı qapılar açılır. Unudulmuş tariximiz aydınlaşır. Bir zamanlar qaranlıqlar içərisində olmuş keçmişin məhrumiyyət dolu hadisələri bu gün müstəqil respublikamızın şanlı tarixinə çevrilir. Məhz bu tarix bizi öyrədir, özümüzü daha da dərindən dərk etməyə səsləyir.

Biz iftixar ediləcək Azərbaycan tarixini yaratmış onlarca böyük nümayəndələri bu gün minnətdarlıq hissi ilə yad edirik. Nə qədər təəssüflü olsa da, demək lazımdır ki, milli ictimai fikir tariximizin iftixar doğuracaq belə şəxslərinin heç də hamısını yad edə bilməmişik. Belə şəxsiyyətlər isə olduqca çoxdur. Bu şəxslərdən biri, XX əsrin əvvəlləri və sovet hakimiyyətinin ilk illərində yaşamış, həyatını, xalqının milli azadlığı uğrunda mübarizəyə qurban vermiş vətənpərvər şair, publisist və ədəbiyyatşünas alim Əliabbas Müznibdir. Əliabbas Müznibin həyat tarixçəsi XX əsrin əvvəlləri Azərbaycan xalqının ibrətamiz hadisələrindən biridir. Şairin hələ yüz ilə yaxın tarixin ibrətamizliyi barədə yazdığı aşağıdakı misallar bu gün onun özünə nə qədər də aiddir:

Cahanda hər kəsin rəhnümasıdır tarix,
Əsiri-zülməti-qəhrin ziyasıdır tarix,
Hüquqi səlb olunan millətin bu gün məncə,
Hünərli, qüvvəli tək bi xudasıdır tarix.

Şair, ədəbiyyatşünas Əliabbas Müznibin 135 illik yubileyi münasibətilə yazılmış bu vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" hissəsindən ibarətdir. I hissədə şairin nakam həyatından, II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Giriş

Ədəbiyyatda Müznib təxəllüsü ilə tanınan şairin əsl adı və soyadı Əliabbas Mütəllibzadədir. Müznib də bir çox yazıçı və şair çağdaşları kimi ədəbiyyat və mətbuat aləminə 1905-ci ilin Rus qiyamından sonra gəlmiş və iti qələm, üsyankar ruhu, milliyyətçi və türkçü inancları ilə qısa zamanda ədəbi dairələrdə böyük maraq toplamışdır. O, ilk olaraq mollaxanada, bir müddət də rus-tatar məktəbində təhsil almışdır. Fars və rus dillərinə, Türk tarixinə dair geniş məlumatlarını şəxsi oxuma yolu ilə əldə etmiş və bu mövzularda dövrünün məlumatlı şəxsiyyətlərindən biri kimi tanınmışdır.

İlk şeirlərini 1907-ci ildən başlayaraq "Təzə Həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda nəşr etdirən Əliabbas Müznib, qısa bir müddətdən sonra 1910-cu ildə "Hilal" adlı bir qəzet nəşr etdirmiş; həddindən artıq tənqidçi ruhu və ifşaçılığı ilə diqqəti çəkən bu qəzetin ilk sayı hələ mətbuatda ikən müsadirə olunmuşdur. Buna səbəb Müznibin "Hökumət, ah bir insan yeyən qurd, nə pul qoyar nə bir yurd"  misraları ilə başlayan şeiri olmuşdur. Rəsmi dairələrdən icazəsiz nəşr etdiyi ikinci sayda isə, Müznib milli gəncliyi, öz haqqını tələb etməməsi baxımından günahlandıraraq belə yazmışdır: "Namusu qatı, qarət etməklə qazanmak olmaz, bəlkə, hüquqi vətən yolunda ölməklə olar. Görürsünüzmü, ata-babadan qalan torpağımız zalımın çoxluğundan bir taxta pul mənasında olmuş; bu gün səhər kark olmaqla məhv nabud olmadığımız dəxi mühəkkek olmuşdur. Əlimizdən gedən ihtiyaratm istirdadına çalışmaqla sübut oluna bilər". "Hilal" 1911-ci ilin ilk aylarında bağlanır. Şairin yayınlamağa başladığı "Şihab-sağıb" dərgisinin də aqibəti eyni olmuşdur. 1911-ci ildə də Müznib hökumətə istiqamətli yazılarına görə, əvvəl qısa müddət üçün həbs olunmuş və günahlandırılmışdır. Daha sonra isə çar hökuməti

tərəfindən ömür boyu Sibirə sürgün edilmişdir. Amma isyankar ruhlu şair, Sibirdə də yazmaqdan qalmamışdır. Burada yazmış olduğu şeirlərini Bakı mətbuatında nəşr etdirirdi. 1913-cü ildə Romanovlar sülaləsinin qurulmasının 300 ili qeyd olunduğu sırada, Müznib də əfv olunaraq Bakıya qayıtmış və yenidən mətbuat və nəşriyyat aləminə atılmışdır. 1914-cü ildə böyük qardaşı Əbülfəz Mütəllibzadənin adına "Dirilik" adlı bir məcmuə qurub. "Müsavat" partiyasının lideri, Azərbaycan Parlamentinin ilk başçısı Məhəmməd Əmin Rəsulzadənin "Milli dirilik" adlı ardıcıl yazıları ilk dəfə bu jurnalın sahifələrində nəşr olunmuşdur. Azərbaycanda türkçülük fikrinin yayılmasında, Müznib və onun "Dirilik" jurnalı ətrafına yığdığı ədəbi qüvvələr əhəmiyyətli rol oynamışdır. 1915-ci ildə Müznib bu jurnalın səhifələrində Rus imperatoru Deli Petronun Türk-Müsəlman düşmənliyi ilə dolu "Vəsiyyət" ini nəşr etdikdən sonra, yenidən təqiblərə məruz qalmışdır. Az sonra isə jurnal bağlanmışdır. Daha sonra Müznib "Türkün səsi" adlı bir qəzet çıxartmaq fikrinə düşsə də, rəsmi dairələrdən lazım olan izni ala bilməmişdir. 1913-1917-ci illər arasında Müznib, milli yayım səhnəsində geniş bir şəkildə çalışırdı. Şair özgün əsərlərlə birlikdə Şərq və Qərb ədəbiyyatından da tərcümələr edirdi. Öz əsərlərindən və tərcümələrdən ibarət olan onlarla kitab yayınladırdı. Rus imperiyasının süqutundan sonra Müznib ədəbi və siyasi sahələrdə daha geniş fəaliyyət göstərmişdir. 1919-cu ildə yeni Azərbaycan Cümhuriyətinin Dövlət Marşını yazmışdır. Respublikanın rəsmi nəşr orqanı olan "Azərbaycan" qəzetində Türklüyün tarixi və məsələləri üzərinə bir ardıcıl məqalələr nəşr etdirmişdir. Sovet rejimi dövründə bir müddət 1920-1926-cı illər arasında Müznib yenə mətbuatda çalışdı. Amma burada ona hər zaman millətçilik sahəsində köhnə yazdıqları xatırladılmış və nəhayət, 1926-cı ildə, erkən yaşda təqaüdə ayrılmağa məcbur edilmişdir. Türkçü və milliyyətçi olduğu üçün Müznib Sovet

dövründə də, Çar dövründə olduğu kimi təzyiq və sərt reaksiyalara məruz qalıb. Həyatının 20 ilini mətbuata həsr etmiş Müznib, 1926-cı ildə 44 yaşında mətbuatdan ayrılmış, siyasətdən tam uzaqlaşmış və ədəbiyyat araşdırmacılığı ilə məşğul olmuşdur. 1927-1937-ci illər arasında, Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən ibarət olan on kitab yayınlamış. Bütün bu əsərləri özü yığmış, onlara geniş ön söz, bioqrafi və şərhlər əlavə etmişdir. 1937-ci ildə yenidən həbs olunan Müznib XX əsr Azərbacan ədəbiyyatının bir sıra tanınmış şəxsiyyətləri kimi, milliyyətçiliklə və pantürkizmlə ölüm cəzası hökm olundu. Son zamanlarda ortaya çıxan sənədlərdə Əliabbas Müznibin 27 avqust 1937-ci ildə güllələndiyi qeyd edilib.1956-cı ildə dövlət tərəfindən günahsız olduğu etiraf edilib, ölümündən sonra bəraət edən Müznibin əsərləri hələ də tam toplanıb nəşr olunmamış və yaradıcılığı tədqiq edilməmişdir.

Görkəmli şairimiz Əliabbas Müznibin anadan olmasının 135 illik yubileyi ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş şəkillərindən ibarət fotostendi, kitabları, ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: “Günahsız müqəssir”, “Əliabbas Müznib kimdir”, “Əliabbas Müznib”, “Əliabbas Müznib şəxsiyyətinə tutulan işıq”, “Vətən mücahidlərindən biri”, “Azərbaycan Cümhuriyyətinin Dövlət Marşını yazan şəxsiyyət”, “Vətən istiqlalından ruh alan şair”, “Həyatını Azərbaycan xalqının milli-azadlıq hərəkatına həsr edən şəxsiyyət” və s. kimi başlıqlar verilə bilər.

# Kitab sərgisi












## Keçiriləcək tədbirlər

İstedadlı şairin yubileyi ilə əlaqədar kitabxanalarda müxtəlif tədbirlər keçirilə bilər. Keçiriləcək tədbirlərdən biri də, *"Ey dil, nə yatmısan, gözün aç bir cahana bax!"* adlı **şeir müsabiqəsidir**. Kitabxanaçı ilk olaraq şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hamı tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçının dəyərli məlumatlarından sonra iştirakçılar ard-arda öz şeirlərini söyləmək üçün səhnəyə yaxınlaşırlar.

**I iştirakçı:** Getmiş cəfavü cövr ilə əldən qərarımız,
Qəhrü qəzəblə səlb olunub ixtiyarımız.

Səlb olmadı tramvay işi, artdı dərdü qəm,
Payi-piyadə seyrə çıxır gülüzarımız.

Şollar suyuna qırx neçə milyon gedib yenə,
Qan nuş edər fəğan ilə xurdü kübarımız...

**II iştirakçı:** Ey dil, nə yatmısan, gözün aç bir cahanə bax!
Dünyanı yandıran sitəmi-biimanə bax!
Varlı evində "yolka" bəzər "Analar" üçün,
Səkkiz yetimi ac yatan Mehribana bax!
Beldə tapança bu qoçu adlı dənini gör.
Ədayə tülkü, qardaşına arslana bax!..

**III iştirakçı:** Çərxi-din saldı allah, yanar odlara məni,
Qoydu həsrət sarısaç, gözləri göy yarə məni.
Həqq bilir mən o məhin aşiqi-dildadəsiyəm,
Aşiq ömrün uzadan zülfinin üftadəsiyəm.

Maldan keçmişəm, indi ölüm amadəsiyəm
Xeyli xoşbəxtəm edə tığ ilə sədparə məni,
Bənd qıldım dilimi türreyi-tərrarına mən.
Etdim əmlaki fəda arizi-gülnarinə mən...

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Kitabxanada mövzu ilə bağlı müxtəlif tədbirlər keçirilməsi məqsədəuyğundur. Oxucuları maarifləndirmək adına kitabxanaçı kitabxanalarla birgə məktəblərdə də mütəmadi tədbirlər keçirir. Belə tədbirlərdən biri də *"Vətən mücahidlərindən biri"* adlı *məktəblilərlə söhbət* adlanır. Kitabxanaçı məktəbin oxu zalına toplaşan oxuculara nakam şair Ə.Müznib haqqında məlumata keçid alır.

***Kitabxanaçı:*** "Müznib" imzası Əliabbas Mütəllib oğlu Əhmədovun ədəbi təxəllüsüdür. "Müznib" sözü ərəb dilində günahkar, müqəssir mənasındadır. Qəribə olsa da, bu imza ilə Əliabbas Mütəllibzadənin şəxsi həyatı arasında bir çox sıx bağlılıq vardır. Elə bil ki, hələ yaradıcılığının ilk çağlarında taleyin onun adına yazmış olduğu cəza hökmünü o qabaqcadan bilmiş, buna görə də özünə belə bir ədəbi təxəllüs seçmişdir.

Əliabbas Müznib həyatı boyu öz ictimai ideyalarına görə üç dəfə müxtəlif vaxtlarda cəzaya məhkum olmuşdur. Birinci dəfə 1912-ci ildə çar hökuməti onu xalqı milli-azadlıq qiyamına çağıranlar sırasında Sibirə ömürlük sürgün etmişdir. O, 1913-cü ildə Romanovlar sülaləsinin üç yüz illik yubileyi münasibətilə əhvi-ümumiyyəyə düşmüşdür. İkinci dəfə Əliabbas Müznib

1914-cü ildə dini-fanatizmi tənqid etməsinə görə Bakı ruhanilərindən şeyx Qəninin ölüm fitvasına məruz qalmışdır. Əliabbas Müznib üçüncü ağır cəza hökmünə 1937-ci ildə düçar olmuşdur. Lakin o, taleyin onun adına yazdığı bu cəza hökmündən yaxa qurtara bilməmiş, bir “burjua millətçisi”, “pantürkist” və “panislamist” kimi məhkum edilib. Yenə Sibirə göndərilmiş, 1938-ci ildə orada da vəfat etmişdir. Beləliklə, ədəbi-ictimai həyata “Müqəssir” imzası ilə atılmış Ə.Müznib ömrünü müqəssir kimi də başa vurmuşdur.

Əliabbas Müznibin həyat tarixçəsi göstərir ki, onun seçmiş olduğu ədəbi təxəllüs ilə mənsub olduğu nəslin taleyi arasında da bir yaxınlıq olmuşdur. Məlum olur ki, belə bir cəza və ittihama hələ XIX əsrin əvvəllərində onun ulu babası – Bakının sonuncu xanı Hüseynqulu xan da məhkum edilmişdir. Nəslin qanlı tarixi 1806-cı ilin əvvəllərində çar generalı Sisiyanovun Bakını işğal etmək istədiyi zaman öldürülməsi ilə başlanmışdır.

Bu hadisə sonralar Bakı əhalisi üçün böyük hadisələrə səbəb olmuşdur. Çarizmin işğalçı cəza dəstələri xalqı qılıncdan keçirmiş, Hüseynqulu xan vətənindən didərgin düşmüşdür. Ə.Müznib bu qanlı hadisələri ulu babası Hüseynqulu xana həsr etdiyi “Təəssürat”, başlıqlı bu şeirində dərin hüznlə yad etmiş, şeirin üzərində “Ulu babamı xatırlama” sözlərini yazmışdır. Sovet hakimiyyətindən əvvəl qələmə aldığı bir sıra yazılarında Əliabbas Müznibin çarizmin Azərbaycan xalqının başına gətirdiyi faciələri dəfələrlə yad etmişdir. 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin bir illik yubileyi münasibətilə çap etdirdiyi məqaləsində o bu faciəli keçmişi – “Bir əsrdən ziyadə bir müddətin içində tökülən hesabsız qanların bahasına zalımların yədi-asibanəsindən əxz edilən..” bir gün kimi xatırlayırdı. O, şəxsi arxivində saxlanılan, təxminən 1920-ci ilə aid qeydlərdən birində XIX əsrin

əvvəllərində çarizmin Bakını işğalı hadisələrini xalq ədəbiyyatından aldığı bir şeir parçasında bu cür təsvir edirdi:

Yürüdü qoşunu xanın iləri,
Görcək bunu ruslar çəkildi geri,
Düşmənlərdən təmizlədik şəhəri,
Bakı şəhri sevimli yurdumuzdur.

Əliabbas Müznib Sovet hakimiyyəti illərində yazdığı tərcümeyi-halında vətənin və xalqının rus çarizmi tərəfindən başına gətirilən hadisələr barədə yazırdı: “1813-cü ildə İran və Rusiya arasında bağlanmış “Gülüstan müahidənaməsi” mövzusunda Hüseynqulu xan Bakıdan çəkildikdə xanın əqvam və əqrəbasına rus qoşunları tərəfindən şiddətli cəzalar verilmişdir. Cəbr, sürgün, edam edilməkdən müzayiqə olunmamışdır. Rusiya hökuməti on üç il Bakıda yerləşmişlər.

Qətliam şəhərdə həftələrlə davam etmişdir. Azyaşlılar belə qılıncdan keçirilmişdir. “Yeddi ev bir güvəcə möhtac oldu” zərbül-məsəli bu tarixi hadisənin şahidi idi”. Ə.Müznibin yad etdiyi faciəli hadisələr onun ata-babalarının yaddaşından heç zaman silinməmiş, bir acı xatirə kimi nəsildən-nəslə nəql edilmişdir. Bu xatirələrin doğurduğu dəhşətli vahimə hətta üstündən az qala yüz il keçdikdən sonra da onun atasının çar hökumət orqanlarına qarşı qəzəb və barışmazlıq hisslərini soyuda bilmirdi. Bu xatirələr o zaman kiçik Əliabbasın da həyatında öz silinməz izlərini buraxmışdır. Atası onun çar üsul-idarəsinə məxsus yeni üsullu məktəbə getməsinə belə razılıq vermirdi. Ə.Müznib həmin hadisələrin tarixçəsini belə nəql edirdi: “O zaman atam tikilməkdə olan bir məktəbdə daşyonan işləyirdi. Mən bir iş üçün onun yanına getmişdim. Təsadüfən tikintiyə hamilik edən Hacı Zeynalabdin Tağıyev gəlib çıxır, məni görüb xoşlayır. Atama deyir:

– Kişi, oğlunu ver, uşkollaya oxudum. Lakin atam Hacının bu fikrinə razı olmur.

– Mənə urusdan gələn xeyir lazım deyil, – deyə cavab verir”.

Ata-babasının çarizmin müstəmləkə əsarətinə qarşı belə barışmazlığı təkcə Əliabbasın deyil, Mütəllib kişinin digər uşaqlarının da həyatında öz təsirini göstərirdi. Ə.Müznibin kiçik qardaşı, gələcəkdə görkəmli şair, nasir, publisist və türkoloq alim kimi tanınan Əmin Abid də öz həyatını Azərbaycan xalqının milli-azadlıq hərəkatına həsr edib. O da 1937-ci il qurbanlarından biri olmuşdur.

Əliabbas Müznib təxminən otuz illik bir yaradıcılıq yolu keçib. Bu illər içərisində o, yüzlərlə poetik əsərlər, publisist məqalələr yazıb. Təxminən on adda qəzet və jurnala naşir və redaktor olub, tərçüməçilik sahəsində də uğur əldə etmişdir. 1910- cu ildə “Min bir gecə” nağıllarından tərcümə etdiyi bir parçanı “Əlifleyla” adı ilə çap etdirmişdir. “Ürək yanğısı” və “Tikan kolu” əsərləri oxucularının çox sevdiyi kitablarındandır. Uzun illər ərzində topladığı el aşıqlarının, söz sənətkarlarının əsərlərini 1926-cı ildə “Aşıq Pəri və müasirləri” adlı kitabda çap etdirmişdir.

Ə.Müznib bütün fəaliyyətində özünü həmişə bir məqsədə – vətənin və xalqın milli azadlığı mübarizəsinə həsr etmişdir. O, məhz bu məqsəd yolunda da həyatını qurban vermişdir.

*Tədbirin sonunda məktəblilər şairin şeirlərini qiraətli şəkildə söyləyirlər.*

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi “*Ey türklüyün nişanəsi, yüksəl səmalərə”* adlı **konfrans** da keçirilə bilər. Konfransa tarixçilər, tədqiqatçılar, ədəbiyyatşünaslar və s. dəvət edilə bilər. Kitabxanaçı hər kəsi salamladıqdan və şair haqqında məlumat verdikdən sonra sözü iştirakçılara verir.

**I iştirakçı:** Ə.Müznib Azərbaycan ədəbiyyatşünaslığının yaradıcılarından biri olmuşdur. Ə.Müznibin yaradıcılığının əsas istiqamətini Azərbaycan folkloru və xalq şeiri təşkil etmişdir. Əliabbas Müznib "Həqiqət" qəzetinin ən fəal müəlliflərindən biri idi. "Həqiqət" qəzetinin səhifələrində daha çox "Ədəbiyyat, yaxud ehtisasat" adlı yazılarla çıxış edən ədibin burada, həmçinin maarifçilik ruhu daşıyan şeirləri, müxtəlif məqalələri də işıq üzü görüb. Ə.Müznib "Həqiqət"in 1910-cu ildə nəşr olunan 7, 10, 11, 12, 16, 21, 40, 45, 46, 57, 102, 103-cü nömrələrində öz yazılarını dərc etdirib. Müəllifin hikmətli yazıları "Həqiqət" oxucusunu yüksək mənəviyyat sahibi olmağa, elmə, mədəniyyətə, intibaha, maarifçiliyə sövq edir və insanda mənəvi zövq, yüksək dünyagörüşü formalaşdırırdı. Bu baxımdan, qəzetin 1910-cu il 14 yanvar tarixli 10-cu nömrəsində işıq üzü görən "İttifaqmı-nifaqmı?" məqaləsi xarakterikdir. Adından da göründüyü kimi, yazı insanları birliyə, mənəvi bötövlüyə səsləyir, ətalətdən yaxa qurtarmağa, cəhalət yuxusunda yatanları isə oyanmağa çağırırdı. XX əsrin əvvəllərində xalqımızın hələ də cəhalət məngənəsində olmasını müəllif təəssüf hissi ilə qarşılayır və müsəlman aləmini ruhsuz bir heykələ bənzədirdi: "Qafqazda sakin olan əhli islama ürf nəzər etdikdə bütün bütünə bir hiss, bir heykəl, bir ruh cəmad olunmuş bir şey nəzərə çarpıyor. Əcəba nə tükənməz bir qəflət, nə latənahi bir cəhalət" ("Həqiqət", 1910-cu il, 14 yanvar, №10). Müəllif bildirir ki, XX əsrdə yatmaq olmaz, artıq oyanmaq zamanıdır. Oxumaq, öyrənmək, öyrətmək, savadlanmaq vaxtıdır. Çünki millətinin bu gününü, sabahını düşünən həqiqi ziyalılara bizim hər an ehtiyacımız var. Ədibin "Həqiqət" qəzetinin 1910-cu il 17 yanvar tarixli 12-ci nömrəsində nəşr olunan "Ədəbiyyat, yaxud ehtisasat" adlı yazısı, bu gün də aktuallığını qoruyub saxlayan bir mövzuya, falçılığa həsr olunub. Müəllif məqalə vasitəsilə falçıları və onlara uyanları

kəskin tənqid atəşinə tutur, insanları bu yoldan çəkindirməyə, haqq yoluna yönəltməyə çalışırdı: "Uzun bir ömrün daimi səfalət və rəzalət içində keçirib bəlkə bundan belə bir parlaq səadətə yetişəcəgəm deyə var yoq ümidini istiqbala bağlayan bir şəxs bundan böylə fürsətdən müstəqid olmağa axırıncı bir fülusunadək tərk etməzmi?" ("Həqiqət", 1910-cu il, 17 yanvar, №12). Müəllif bildirir ki, belə xürafi işlər yalnız yalandan ibarətdir. Ə. Müznibin bütün yazıları ibrətamiz və dərin-fəlsəfi məzmuna malikdir. Müəllifin yazıları müəyyən mövzularla məhdudlaşmır, sərhədləri aşır və ümumbəşəri xarakter daşıyırdı. Qəzetin 103-cü nömrəsində "Ədəbiyyat" sərlövhəsi ilə nəşr olunan şeir də məhz bu qəbildəndir: "Gedibdir naxüda əldən cəhan bir çeşmi giryandır, Bütün bir növhei dilsiz ilə əhvali təbiyandır, Fəlakətlə, səfalətlə bəşər məğlubi hüsrandır, Müsəlman zülmi zalimdən! Müsəlman zülmi zalimdən! ("Həqiqət",1910-cu il, 9 may, №103) Ə. Müznib də digər mütəfəkkirlərimiz kimi, hər zaman xalqımızın taleyini düşünür, maarifsizliyə, cəhalətə qarşı mübarizə aparır, çarələr arayırdı. Ən önəmli çarə isə, təbii ki, elm və bilik mənbəyi olan məktəblərin açılması, insanların elmə, savada həvəsləndirilməsi idi. Bu məzmunda mütəmadi olaraq yazılan və dərc olunan məqalələr həmin addımın atılmasına bariz nümunədir. Belə yazılardan biri də qəzetin 102-ci nömrəsində nəşr olunan "Tazə məktəb" məqaləsidir. Məqalədə məktəb açılması təşəbbüsündən və həmin cəhdin uğurla nəticələnməsindən söz açılırdı. "Həqiqət" qəzetinin bütün müəllifləri zamanla səsləşən, aktual və müasirliyini bu gün də qoruyub saxlayan məqalələri ilə oxucuların maariflənməsində mühüm rol oynadı. Bu məqalələr insanların bilavasitə şüuruna təsir göstərərək onlarda ictimai rəy, yüksək təfəkkür tərzi, mənəvi zövq formalaşdırdı.

**II iştirakçı:** Yazıçının tərtib edərək 1928-ci ildə Azərnəşrdə nəşr etdirdiyi "Aşıq Pəri və müasirləri (XIX əsrin birinci yarısı)" kitabı da orta əsrlər antologiyalarını – cüngləri xatırladır.

Əliabbas Müznibin tərtib edərək 1917-ci ildə Orucov qardaşlarının elektrik mətbəəsində nəşr etdirdiyi "Türkcə qəzəllər (əski ədəbiyyatımız nümunələri)" kitabı bir neçə baxımdan diqqətə layiqdir. Müəllif özü kitabın cildində yerləşdirdiyi məlumatda toplu haqqında yazır: "Bu kitabda Əmir Əlişir Nəvai, Füzuli, Cənnəti, Abbasqulu ağa Qüdsi, Növrəs Osmani, Hüdayi, Mikayil Seydi, Mirzə Abbas Şahin, Ağa Kərim Salik, Məhəmməd ağa Cürmi, Ağadadaş Müniri, Nabi, Cənab Şihabəddin, Məzaqi, Ağadadaş Sürəyya, Asi, Seyid Əzim, Raşid, Səid, Qasım bəy Zakir, Məhəmməd Bəliğ, Nişati, Əsmət, Rüşdi, Məhəmməd Ehsan, Zakir, Natəvan, Vəhdəti, Vəfa, Baki və sair bunlar kimi qəzəlsəralıqda məşhur olan yüzdən ziyadə şairlərin qəzəlləri dərc edilmişdir". Kitabı nəzərdən keçirdikdə görürük ki, Ə.Müznib burada orta əsrlərdən son dövrlərə qədər davam etmiş cüng, məcmuə tərtibi ənənəsini uğurla davam etdirmişdir.

Qeyd etmək istərdik ki, şeir topluları – cünglər, məcmuələr, bəyazlar bütün dövrlərdə şairlər, yazıçılar, ədəbiyyatşünaslar, ədəbiyyat həvəskarları tərəfindən yüksək dəyərləndirilmiş, bu antologiyalardakı klassik poeziya haqqında məlumatlar ədəbi zövqləri inkişaf etdirmişdir. Müasir tədqiqatçılar bu topluların köməyi ilə müxtəlif dövrlərdə ədəbiyyat haqqında təsəvvürləri, ədəbi əlaqə və ədəbi zövqləri öyrənmək imkanına malikdirlər. Orta əsr şeir toplularından XVII əsr şairimiz Mürtəzaqulu xan Zəfərin 1994-cü ildə aşkar edilmiş, türk, fars və qismən də ərəb dilində tərtib edilmiş cüngünü nümunə göstərə bilərik. 2004-cü ildə faksimilesi "Jünge-Mürtəzaqulu xan Şamlu" adı ilə Tehranda nəşr edilən, 650 səhifədən ibarət bu kitabın tərtibinə II Şah Abbas dövründə, 1658-ci ildən Mürtəzaqulu xanın

rəhbərliyi ilə başlanmışdır. Ön sözdə verilən məlumata görə, bu qiymətli əlyazmanı vaxtilə təbrizli Əsədulla Naziməddövlə İstanbulda İran səfiri olduğu zaman, 1892-ci ildə almışdır. Əlyazmalar İnstitutunda Mir Möhsün Nəvvabın, M.Məxfinin, İsgəndər bəy Rüstəmbəyovun, Hüseyn əfəndi Qayıbovun və bir sıra digərlərinin şeir topluları mühafizə edilir. Buraya onu da əlavə etmək istərdik ki, Ə.Müznibin şəxsi arxivində türkcə və farsca şeirlərdən ibarət əlyazma halında şeir toplusu vardır. Bəzi şeir topluları hələ XIX əsrdə çap edilmişdir. Məsələn, Mirzə Yusifin "Məcmueyi-divani-Vaqif və digər müasirin" kitabı 1856-cı ildə Teymurxanşurada, Adolf Berjenin "Qafqaz və Azərbaycanda məşhur olan şüaranın əşarına məcmuədir" kitabı 1867-ci ildə Leypsiqdə çapdan çıxmışdır.

**III iştirakçı:** "Türkcə qəzəllər" digər şeir məcmuələrindən bəzi cəhətləri ilə fərqlənir. M.Füzulinin şeiri ilə başlanıb Sabirin şeiri ilə qurtaran bu kitabda türkdilli ədəbiyyatda sələf-xələflik məsələləri, türk xalqları ədəbiyyatları arasındakı əlaqələr, bütövlükdə türk ədəbiyyatına ümumi bir baxışla baxmaq meyli ilkin diqqəti cəlb edir. Böyük Azərbaycan şairi, ədəbiyyatşünası və rəssamı Sadiq bəy Sadiqi (1533-1610) Ə.Nəvainin "Məcalisin-nəfais" adlı təzkirəsini örnək götürərək yazıb 1607-ci ildə tamamladığı "Məcməül-xəvas" təzkirəsində Azərbaycan, osmanlı və cığatay şairləri haqqında məlumat, əsərlərindən nümunələr verilmiş, professor Turxan Gəncəyinin sözləri ilə desək, "siyasi hüdudları və sülalələr arasında ixtilafları bir tərəfə buraxaraq, türk dili və ədəbiyyatını bir bütün halında götürmüşdür". Ə.Müznibin S.Sadiqinin irsindən nə dərəcədə xəbərdar olduğunu bilməsək də, deyə bilərik ki, onun toplusu da elə həmin məqsədlə tərtib edilmişdir. Məlum olduğu kimi, orta əsrlər və sonrakı dövrlər türk xalqları ədəbiyyatına Nəvai və Füzulinin çox güclü təsiri olmuşdur. Füzuli ədəbiyyata gəlib geniş miqyasda tanındıqdan sonra Nəvai təsiri müəyyən

qədər zəifləsə də, bəllidir ki, hətta XX əsrin əvvəllərində də Azərbaycanda Nəvai şeirlərinə nəzirə və təxmislər yazılmışdır.

Topluda diqqəti cəlb edən cəhətlərdən biri Nəvai-Füzuli əlaqələrinə xüsusi fikir verilməsi, bu iki şairdən (əsasən Füzulidən) bəhrələnən sənətkarların əsərlərindən nümunələr verilməsidir. Məsələn, bir yerdə Nəvainin

Bu ki, hər yandan gögərdibdir
yüzini kaci-vərd,
Cism evi taqini altun birl
qıldım lacivərd...

– mətləli qəzəli verilir və ardınca Füzulinin ona nəzirə olaraq yazdığı

Gərmdir şamü səhər mehrinlə
çərxi-lacivərd,
Gəh sirişki-al edər izharü
gəh rüxsari-zərrd...

– beyti ilə başlanan şeiri nümunə gətirilir.

Təəssüf hissi ilə qeyd etməliyik ki, indiyə qədər bizdə Ə.Nəvainin külliyyatı nəşr edilməyib, ümumiyyətlə, böyük şairin heç bir lirik şeirlər toplusu işıq üzü görməyib. Nəvai şeirlərindən xəbərsiz olsaq, onun əsərlərindən neçə şairimizin bəhrələndiyini bilməyəcəyik, bütövlükdə ədəbiyyat tariximiz barədə təsəvvürlərimiz natamam olacaqdır.

**IV iştirakçı:** Başqa bir maraqlı cəhət: məcmuə divanlar kimi əlifba sırası ilə düzülmüşdür. Hardasa əvvəldə Füzuli şeirini, ona yazılan nəzirələri və ya onun təsiri ilə yazılan şeiri oxuyuruqsa, ortada, sonda da bunu görürük. Nəvai, Füzuli ədəbiyyat tariximizdə olduğu kimi, bu toplunu da əvvəldən axıra qədər müşayiət edir. Ədəbiyyatımızın inkişafında ən diqqətəlayiq cəhətlərdən biri odur ki, orta əsrlərdən XX əsrə qədər yüzilliklər ərzində Türkiyə, Azərbaycan və Orta Asiya xalqları ədəbiyyatları heç bir vaxt bir-birindən təcrid olunmamışdır.

Aralarında müharibə gedən dövrlərdə belə, bu xalqların ədəbiyyatları sıx əlaqələrini itirməmişdir. Təəssüf ki, bir sıra ədəbiyyat dərsliklərində, tədqiqatlarda biz bu mənzərəni görmürük və bu da ədəbiyyat tariximizin bəzi məqamlarının obyektiv işıqlandırılmamasından xəbər verir. Kitabda üç qardaş türk xalqının – Türkiyə türklərinin, azərbaycanlıların və özbəklərin poeziyası bir şeir toplusu-divan kimi tərtib edilmişdir. Kitaba osmanlı şairlərindən Baqi, Nədim, Bəliğ, trabzonlu Fəhmi, Növrəs Osmani, Bağdad valisi Əli paşa, Rüşdü Qədim, Bursalı Nüzhət, Kazım paşa, Xəlil Ədib, Cənab Şihabəddin və başqalarının şeirləri daxil edilmişdir. Buraya Azərbaycanın müxtəlif bölgələrini təmsil edən sənətkarların – Qarabağdan Molla Zeynalabdin Sağəri, Qasım bəy Zakir, Abdulla bəy Asi, Növrəs, Mir Mehdi Xəzani, Məhəmmədəli bəy Məxfi, Mehdiqulu bəy Vəfa, İbrahim Tahirin, Bakıdan Məşhədi Azər, Ağadadaş Sürəyya, Ağadadaş Münirinin, Şamaxıdan Seyid Əzim Şirvaninin, Cənubi Azərbaycandan Zikri, Əttar Ərdəbili, M.M.Şükuhinin şeirləri salınmışdır.

**V iştirakçı:** Əlbəttə ki, diqqətəlayiq cəhətlərdən biri də toplunun Füzuli şeiri ilə başlanıb, Sabir şeiri ilə qurtarmasıdır. Kitab çap edilərkən Sabir artıq altı il idi ki, vəfat etmişdi. Toplunun daha əvvəllərində şeiri verilmiş Əliağa Vahid isə şeir-sənət aləmində ilk addımlarını atan gənc idi. Ədəbiyyat tarixini gözəl bilən, özü də Sabirin təsiri ilə satirik şeirlər yazan Ə.Müznib Ə.Vahidin klassik poeziya ənənələrini davam etdirdiyini, Sabirin yaradıcılığının isə ədəbiyyatımızın yeni səhifəsini təşkil etdiyini yaxşı başa düşürdü. Antologiyanın üzərində “Birinci kitab” yazan tərtibçi yeni kitaba ən müasir poeziya nümunələrini salmağı planlaşdırmşdı. Onun məntiqinə görə, Sabirin simasında ədəbiyyatımız klassik dövrü ilə vidalaşaraq müasir dövrünə qədəm qoyur. Beləcə, bir antologiyada, sadəcə müxtəlif şairlərin

əsərlərini düzməklə Ə.Müznib ədəbiyyat tariximiz barədə bu yazıda qeyd etdiyimiz və etmədiyimiz fikirlərini söyləmişdir. Ümidvarıq ki, M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi Samirə Gəncəlinin nəşrə hazırladığı, son günlərdə işıq üzü görmüş bu kitab (redaktoru: Arif Ramazanov) XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının ədəbiyyat, poeziya barədə fikirləri, bədii zövqü haqqında müəyyən təsəvvür yaratmağa kömək edəcəkdir.

*Tədbirin sonunda şairin satirik şeirləri səsləndirilir.*

Əliabbas Müznibi və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada müxtəlif səpkidə tədbirlər də keçirmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O, şagirdləri, xüsusən də, aşağı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər şairin əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə Əliabbas Müznibin bir sıra hekayələrini səhnələşdirə bilərlər. Şairin sevilən əsərlərindən biri olan **"Şir, tülkü və ulaq"** əsasında hazırlanmış *səhnəciyi* sizlərə təqdim edirik. İlk olaraq səhnə əsərə uyğun olaraq hazırlanır. İştirakçılar canlandıracaqları obrazlara uyğun paltarlar geyinirlər. Aparıcı səhnəyə yaxınlaşaraq poemadan bir hissə deməyə başlayır:

**I aparıcı:** Bir zaman çərxi-dun atıb bir daş,
Şir, tülkü, ulaq olub yoldaş.
Oldular hər üçü şikara rəvan,
Etdilər çox qürur ilə cövlan.
Həddindən artıq çalışdılar hər üçi,
Çoxlu ov tutdular o üç ovçi.
Şir gördükdə ovları, əlan,
Ulağa verdi bölməyə fərman.

Ulaq isə o ovları dərhal,
Üç yerə böldü, etmədi ehmal.
Şir bu bölgüdən acıqlandı,
Od kimi qəhrü qeyzdən yandı.
Ulağı vurdu, yıxdı, parçaladı,
Ətini yeyib qanını yaladı.
Sonra əmr etdi tülkiyə bölsün,
Tülkü, az qaldı, bölmədən ölsün.
Qurudu qorxudan dili-dodağı,
Titrəyə-titrəyə əli, əyağı.
O baxışda kiçik, bilikdə yekə,
Özü üçün götürdü bircə tikə.
Qalanını bəxş qıldı şiri-nərə,
Düşməsin taa ulaq kimi zərərə.
Şir qaldı bu bölgüyə heyran,
Tülküdən sordu keyf ilə şadan:

**I iştirakçı:** "De görüm, böylə bölgünü fövri
Kimdən öyrəndin ey gözüm nuri?"

**II iştirakçı:** Dedi: "Ey bimisal sultanım!
Sənə qurban bu müztərib canım,
Dövlətindən əzizi-dildəndim,
Ulağın ölməyindən öyrəndim".

*Tədbirin sonunda kitabxanaçı tədbir iştirakçılarına nağıla aid suallar verir.*

Nakam Əliabbas Müznibin yaradıcılığını oxuculara tanıtmaq üçün kitabxananın nağıl otağında *"Cəsarət dolu şəxsiyyət"* adlı *nağıl saatı* keçirmək olar. İştirakçılar təyin olunmuş saatda kitabxananın nağıl otağında öz yerlərini alırlar. Kitabxanaçı "Tülkü" adlı nağılı obrazlı şəkildə, personajların dili və xüsusi emosiya ilə oxuyaraq dinləyicilərin nağıla olan diqqətini artırır.

**Kitabxanaçı:** Bir gün bir tülkü tələyə düşdü. O qədər dartındı ki, quyruğu üzüldü. Quyruğu üzüldüsə də qorxudan lap uzağa qaçdı. Lakin buna gəh zühuri-qəziyyədən çox fikrə düşdü. Bir qədər fikirləşdikdən sonra yoldaşlarından neçəsini çağırdı və quyruğunun üzülməyi xüsusində söhbət elədi. Tülkülərdən biri dedi:

– Quyruq toppuz deyil ki, dava edəndə gərək olsun. Fəqət ağır və artıq yükdür. Hər yana gedəndə gərək həmmal kimi gərək özün aparasan.

O biri tülkü buna cəvabən dedi:

– Gərək bu sözü deməyəydin, quyruq olmayanda lümək olub yaraşığı olmayır.

Quyruqsuz tülkü daha xəcalətindən bir söz demədi. Dərhal qalxıb bunların yanından qaçdı.

Kitabxanaçı **"Qurd və qarı"** adlı ikinci nağıla keçid alır.

**Kitabxanaçı:** Bir ac qurd kəndin kənarında dolanıb ov axtarırdı. Yol ilə keçdiyi halda gördü bir yerdə uşaq ağlayır. Və nənəsi ona belə deyir:

– Əgər ağlamağını kəsməsən səni verəcəm qurda aparsın.

Qurd bu sözü eşidincə dayandı. Və gözlədi ki, ona versinlər uşağı. Qaranlıq çökdü, axşam oldu. Qurd isə gözləyirdi. Lakin bir azdan sonra gördü ki, həmin nənə uşağa deyir:

– Ağlama balam, səni qurda verməərəm. Əgər qurd gələrsə, tutub başını üzərik.

Qurd bunu eşidincə:

– Görünür ki, bu evdə bir çürə deyilir, başqa cürə əməl edilir, – deyib çıxıb getdi.

Kitabxanada şairdən bəhs edən müxtəlif tədbirlər və eləcə də ədəbi-bədii gecə keçirilir. Unudulmaz şair Əliabbas Müznibin xatirəsinə həsr olunmuş *"Dünya olunca hökm edəcək türk uluqları, Dünya durunca həp duracaq türk uluqları"* adlı

**ədəbi-bədii gecəyə** Azərbaycanın görkəmli ədibləri, sənət-söz adamları, oxucular, ali məktəb tələbələri, məktəblilər dəvət olunur. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Şairin kitablarından ibarət kitab sərgisi qonaqlar tərəfindən rəğbətlə qarşılanır. Gecənin qonaqları öncə "Əliabbas Müznib haqqında hazırlanmış veriliş" in slaydına baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnədə öz yerlərini alırlar. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürlərini bildirirlər.
*I aparıcı:* Salam, dəyərli qonaqlar! Bu il böyük maarifçi, bənzərsiz pedaqoq, ədəbiyyat fədaisi, tərcüməçi, şair Əliabbas Müznibin anadan olmasının 135 illiyi tamam olur. Əliabbas Müznib həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verən əsl şair idi. Gəlin onun nakam ömür yoluna, keşməkeşli, lakin zəfər dolu, şan dolu, yaradıcılıqla süslənən ömür yoluna birgə nəzər salaq.
*II aparıcı:* Azərbaycan ictimai-bədii fikir tarixində mətbuat xadimi, şair, tədqiqatçı, publisist, tərcüməçi, hər şeydən əvvəl istismar və işğal qüvvələrinə qarşı barışmaz mübariz kimi özgün yeri olan Əliabbas Müznib Mütəllibzadənin həyat və mübarizə yolu sovet repressiya burulğanında sona çatandan sonra, təbii ki, adının müsbət mənada çəkilməsi də qadağan edilmişdir. Yalnız ədib siyasi bəraət aldıqdan sonra, 1970-ci illərin əvvəlində ədəbiyyatşünas alim, filologiya elmləri doktoru İslam Ağayevin Ə.Müznibin şəxsiyyəti və fəaliyyəti haqda tədqiqat xarakterli məqaləsi çap olunmuşdur. Ondan sonra isə filologiya elmləri doktoru Ağarəfi Zeynalzadə ədib və ictimai xadimin nəşr etdiyi mətbuat orqanları (Daha çox "Hilal" qəzeti və "Şihabi-Saqib jurnalı) ilə senzura münasibətləri fonunda onun çarizmə qarşı barışmaz mübarizəsi barədə apardığı elmi araşdırmalarının nəticələrini çap etdirmişdir. Bundan sonra Ə.Müznibin

şəxsiyyəti diqqət mərkəzində olmuş, akademik Ziya Bünyadov, filologiya elmləri doktoru Cəlal Qasımov və b. onun haqqında repressiya qurbanı kimi bəhs etmişlər.

*I aparıcı:* Ə.Müznib haqda bir sıra digər tədqiqatlarda da yeri gəldikcə söhbət getmiş, onun daha çox mətbuat sahəsindəki xidmətlərinə qiymət verilmişdir. Əgər A.Zeynalzadənin Ə. Müznibə həsr olunmuş araşdırmaları, qeyd etdiyimiz kimi, onu daha çox çarizmin senzura aparartı ilə ağır mübarizə şəraitində əzmlə mübarizə aparan mətbuat və ədəbiyyat xadimi kimi təqdim edirsə, İslam Ağayevin tədqiqatları daha əhatəli və tutumludur. İslam Ağayev əvvəlcə Ə.Müznibin nəsli səcərəsinin tarixçəsinə nəzər salır.

*II aparıcı:* Ə.Müznibin romantik yardıcılığında çarizmlə, zülm və ədalətçiliklə barışmazlıq duyğusunun daha çox zəmanədən şikayət və zəhmətkeşlərin acınacaqlı vəziyyətlərin poetik təsviri yolu ilə üzə çıxdığını qeyd edən İslam Ağayev satirada həmin vəziyyətin kəskin ifşaçılıq tərzində üzə çıxdığını göstərir. Qeyd edək ki, Əliabbas Müznib satirik yaradıcılığında "Molla Nəsrəddin" ədəbi məktəbinin, Sabir satira ənənələrinin təsirindən başqa onun öz romantizmindən və islami dünyagörüşündən irəli gələn bir lirizm və həzinlik də özünü göstərir. Ədibin hətta "Əkinçi", "Dilənçi", "Fəhlə" və s. kimi mübariz və barışmazlıq duyğusu ilə aşılanmış şeirlərində də bu ruh aydınca duyulmaqdadır. Azərbaycan Cümhuriyyətin qurulmasında Əliabbas Müznibin fəaliyyətinin dəyəri, sovet hakimiyyəti illərindəki fəaliyyəti, habelə hər iki – çarizm və sosializm imperiyası tərəfindən repressiyaya məruz qalması da monoqrafiyada öz əksini layiqincə tapmışdır.

*I aparıcı:* Görkəmli şair, nasir, publisist və ədəbiyyatşünas, Stalin repressiyaları qurbanı Əliabbas Müznib (1883-1938) özündən sonra böyük bir irs qoyub getmişdir. Onun ədəbiyyatımız, ədəbiyyat tariximiz qarşısındakı xidmətləri son

illərdə, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hərtərəfli tədqiq edilir, əsərləri üzə çıxarılaraq nəşr edilir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Müznibin zəngin ədəbi irsi, XX əsrin əvvəllərində çapdan çıxmış kitabları (tədqiqatçıların bildirdiyinə görə, ötən əsrin əvvəllərində onun altmışa qədər kitabçası nəşr edilib), ədibin əli ilə müxtəlif mənbələrdən köçürüb tərtib etdiyi topluları saxlanmaqdadır. Klassik ədəbiyyatımızın gözəl bilicisi, tariximizin, ədəbiyyat tariximizin araşdırıcısı Ə.Müznibin tərtib etdiyi bəzi toplular əski dövrlərdə əlyazma şəklində yazılıb yayılan cüng, məcmuə və bəzən də təzkirələri xatırladır.

*II aparıcı:* Yazıçının arxivində öz əli ilə yazdığı iki hissəli "Bakı" kitabı şəhərin tarixinə dair müxtəlif mənbələrdən toplanmış məlumatlar toplusudur. Son dövrlərdə müəyyən edilib ki, 1928-ci ildə Azərnəşrdə çap edilmiş "Natəvan Xurşudbanu" kitabının müəllifi Ə.Müznibdir (redaktor və ön söz müəllifi Hənəfi Zeynallıdır). Bu kitabı və onun həcmcə daha böyük olan ikinci nəşrinin əlyazmasını müəyyən mənada cüng, antologiya kimi nəzərdən keçirmək olar. Burada Natəvanın şeirləri, həyat və yaradıcılığı, ədəbi aləmdə nüfuzu, əsərlərinə yazılan nəzirələr barədə məlumatlar toplanmışdır.

*I aparıcı:* Əliabbas Müznib zəngin irsi və dərin psixologizm, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının zənginləşməsində mühüm rolu olmuşdur. Belə bir qiymətli irsi öyrənmək, onu nəsillərə çatdırmaq böyük insanpərvər və vətənpərvər şairimizə ən dəyərli mənəvi abidədir. Əliabbas Müznib "ədəbi", "həmişəyaşar" deməkdir. O, bu gün dillərdə, ürəklərdə, beyinlərdə sayrışan şeirləri ilə, səhnələrdəki mənzum əsərləri ilə yaşayır. Əliabbas Müznib həyatı bitəcəksiz bir ömürdür.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

Seçilmiş əsərləri : şeirlər. - Bakı : Nurlan, 2007. - 163 s.

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2006. - 256 s.

Natəvan Xurşidbanu : poeziya. - Bakı : Elm və Təhsil, 2012.

- 129 s.

***Haqqında***

**Ağayev İ.** Əliabbas Müznib : Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. - Bakı : Elm, 2003. - 376 s.

**Əhmədov B.** Əliabbas Müznib // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. – Bakı : Elm və təhsil, 2011. - C.1. - S. 224-235.

**Xəyal S.** Əliabbas Müznib Bakı və bakılı şairlər haqqında. - Bakı : Nurlan, 2003. - 80 s.

**Əliyeva İ.** Oxşar talelər : Azərbaycan Milli Mətbuatı 142 : "Azərbaycan"ın yazarları // Azərbaycan. - 2017. - 22 iyul. - № 156. - S. 6.

**Fərəcov S.** Vətən istiqlalından ruh alan şair : [şair, ədəbiyyatşünas Əliabbas Mütəllib oğlu Əhmədov (Müznib) haqqında] // Mədəniyyət. - 2016. - 11 mart. - № 20. - S. 15.

**Dünyaminqızı Q.** Vətən uğrunda fəda olmuş qardaşlar : Sovet hökuməti Əliabbas Müznib və Əmin Abidin taleyinə də acı sonluq yazmışdı // Kaspi. - 2015. - 19-21 dekabr. - № 214. - S. 7.

# Günahsız müqəssir Əliabbas Müznib

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 41
Çapa imzalanmışdır: 25.05.2018
Tirajı:100
Pulsuz